BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Təbiət elmləri seriyası 2008*

# YUBİLEY

## QARA TEYFUR OĞLU MUSTAFAYEV – 75



2007-ci il dekabr ayının 15-də Bakı Dövlət Universitetinin «Onurğalılar zoologiyası və bioekologiya» kafedrasının müdiri biologiya elmləri doktoru, professor, Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının akademiki, «Şöhrət ordenli» Qara Teyfur oğlu Mustafayevin anadan olmasının 75, əmək fəaliyyətinin 53-cü ildönümü oldu. Bu münasibətlə BDU-nun rektoru, Əməkdar elm xadimi, Milli Məclisin üzvi, akademik A.M.Məhərrəmov BDU-nun Böyük Elmi Şurası adından Şuranın üzvü olan yubilyarı təbrik etdi. Hörmətli rektor qeyd etdi ki, Qara Mustafayev 1931-ci il dekabr ayının 15-də Kürdəmir rayonunun Dəyirmanlı kəndində anadan olub. Orta məktəbi bitirib, 1949-cu ildən başlayaraq öz həyatını biologiya ixtisasına bağlayan Qara Mustafayev BDU-nu fərqlənmə diplomu ilə bitirmiş, laborant vəzifəsindən məşhur elm yaradıcısına və novator-pedaqoq səviyyəsinə qədər yüksəlib. Qara Mustafayev təbiətə dair 550 əsərin, o cümlədən 50-dən çox kitabın (monoqrafiya, dərslik, dərs vəsaiti, metodik vəsait, elmi-kütləvi kitablar) və 5 telefilmin ssenari müəllifidir. Qara müəllim 38 nəfər alim yetişdirmiş, elmin yeniliklərini 35 il fasiləsiz radio, televiziya və dövrü mətbuat vasitəsilə xalq arasında yayıb. Elmi-pedaqoji və ictimai yaradıcılığında nümunəvi uğurlarına görə çoxlu medal, fəxri fərman, mükafat və Müstəqil Azərbaycanın yüksək ordeni olan «Şöhrət» ordeni ilə təltif edilib.

Biologiya fakültəsinin dekanı prof. A.Ş.İbrahimov qeyd etdi ki, Qara Mustafayev özünün həyat yolu haqqında belə deyir:

«XX əsr bəşər tarixində çox ziddiyyətli yüzillikdir: atom əsri adlandırıldı, güclü texnosfer formalaşdı, yeni mədəniyyət inkişaf etdi, çoxlu dahilər yetişdi, yeni-yeni elm və texnologiya sahələri yarandı. Eyni vaxtda cahanda dəhşətli müharibələr, kütləvi insan qırğını, aclıq, qorxulu xəstəliklər peyda oldu, ədalətsizlik baş alıb getdi. Ətraf mühit bərbad hala düşdü. Belə bir təzadlı dövrdə keçib mənim uşaqlığım və bir şəxsiyyət kimi formalaşdığım zaman kəsiyi».

Qara müəllim hesab edir ki, şəxsiyyətin formalaşması üçün üç əsas mənbə lazımdı: birinci, irsiyyətdir, yəni genetik proqram, kimə kimdən hansı əlamətlərin gəlib çıxması; ikincisi təlim-tərbiyədir, yəni ana laylasından başlamış qocalana qədər məqsədyönlü fəal təsir altında olması; üçüncüsü, ətraf mühitin, o cümlədən sosial şəraitin məqsədsiz,

bəzən isə məqsədli təsirlərdir. Bunlardan hansının kimdə neçə faiz təşkil etməsini bilmək hələ ki, çətindir, bəlkə də hələ uzun müddət mümkün olmayacaq. Lakin şübhəsizdir ki, hamısı var, birlikdə təsir edir, pozitiv və neqativ nəticələr verir».

Biz Qara Mustafayevi yaxşı insan, yaxşı alim, yaxşı pedaqoq kimi tanıyır və sevirik. Deyirlər ki, ulu babası Saf-Qasım kişiyə oxşarlığı var. Ola bilər, ulu babasını tanımırıq. Biz bircə bunu dəqiq bilirik ki, sadə bir ailənin övladı, sadə təlim-tərbiyə almış, təzadlı sosial şəraitdə, çox da təmiz və sağlam olmayan ətraf mühitdə yaşamış bir insandır. Kommunizm tərbiyəsi almışdır. O vaxt gələcəyə möhkəm inam yaradılmasını Qara müəllim dövrün ən böyük sosial-psixoloji uğuru hesab edir. Həmin inam Qara müəllimdən də kənar keçməyib. Bütun çətinliklərə dözüb, sağlamlığını itirə-itirə fasiləsiz fanatikcəsinə işləməyinin, həyatın mənasını başqalarına xidmətdə görməyinin hərəkətverici qüvvəsi gələcəyə inamı olubdur.

Qara müəllim həmişə deyir: «Azərbaycan Respublikası müstəqil dövlət olduqdan sonra mənəvi azadlığımız qol-qanad açdı; indi həyatımızı istədiyimiz kimi qurmaq ixtiyarımız var; gələcəyə indiki inam daha çox müqəddəs niyyətlərə xidmət edir. Kaş tezliklə hamı dərk edəydi ki, bəşəriyyətin gələcək xoşbəxtliyi bütün millətlərin tərəqqisini tələb edir». Bu baxımdan Qara müəllimin belə müqayisəsi var: «Orqanizmin hər hansı bir üzvü tələf olanda, həmin orqanizmin yaşama bacarığı zəifləyir. Cahan da bütöv bir orqanizm kimidir. Onun bir milləti zəifləsə və ya yox olsa, inkişaf yolları daralar».

Qara Mustafayev elmdə və tədrisdə ilk yollar açan alimlər kateqoriyasına daxildir. Onun yaradıcılığında «ilk dəfə» sözünü 100-dən çox konkret faktlarla təkrar etmək olar: 1959-cu ildə ekologiya sahəsində Azərbaycanda ilk dəfə namizədlik dissertasiyası müdafiə etməsindən 2007-ci ildə «ekologiyadan əvvəlki ekologiya» adlı yeni istiqamət yaratmasına qədər.

Qara Mustafayevin yaradıcılığının əsas istiqaməti olan Ekologiya elə bir elmdir ki, böyük vüsətlə inkişaf edir. O özü demişkən, elm elmə söykənib inkişaf edə bilər. Belə olan halda respublikamızda ekologiyanı yaradıb inkişaf etdirənlərdən biri olan professor Qara Mustafayevin yaradıcılıq yolunun əsas nəticələrinə tələbələrin, magistrantların, aspirantların və hər bir gənc tədqiqatçının ehtiyacı var. Qara müəllimin əsas devizi belədir: «Alim elmdə yaradıb, onu xalq arasında yaymalıdır». Onun fəaliyyət dairəsi, vəzifələri, yetirmələri, təltifləri çoxdur. İndiyə qədər Qara müəllim haqqında dövrü mətbuatda yazılmış, radio və televiziyada deyilmiş xoş sözlər, məqalələr, rəylər və təbriklər yüzlərlədir. Az TV-nin «Təbiəti sevənlər» proqramının 35 illik fasiləsiz aparıcısı kimi özünü xalqa sevdirmişdir. Çox populyar alim-pedaqoqdur. Lakin bu sözlərin heç biri Qara müəllimi onun kitabları və elmə gətirdiyi yeniliklər qədər geniş xarakterizə edə bilməz. Hesab edirik ki, Qara müəllimin kitabları, ssenari yazdığı telefilmlər, orijinal elmi konsepsiyaları və prinsipləri çox dəyərlidir. Onlar ilə tanışlıq bu insanın titanik zəhmətindən və böyük istedadından xəbər verir. Təbiətə dair kəşf etdiyi yeni elmi konsepsiyaları və prinsipləri aşağıdakılardır:

«Dağ və aran faunalarının qarşılıqlı inteqrasiyasında antropogen faktorların rolu» konsepsiyası, 1984; «Ornitocoğrafi rayonları xarakterizə etmək üçün kompleks ekoloji qiymətləndirmə» prinsipi, 1985;

«Faunanın yaşama yerinin antropogen «təкamülü» ilə onun кəmiyyəti və кeyfiyyəti arasında paralelizm» кonsepsiyası, 1985; «Nadir heyvanların qoruqdan кənarda saxlanması» prinsipi, 1985; «Canlı təbiətdə neytralizmin inкarı» prinsipi, 1993; «Heyvanlar arasında yem əlaqələrinin bioloji mahiyyəti», 1993; «Biotiк əlaqələrin üçbucaqlı-qoşaxətli forması» qanunu, 1995; «Heyvanların sinantroplaşmasında mərhələliк» prinsipi (Mustafayev Q.T., Al-Ballem F, 1999); «Sivilləşmənin pozitiv və neqativ göstəriciləri» кonsepsiyası, 1999; «Urbanizasiyanın nəticəsinin əsas səbəbdən asılı olması» prinsipi, 1999; «İnsanın (Homo sapies) hiperevribiontluğunun pozitiv və neqativ nəticələri» prinsipi, 1999; «Heyvanların yem xaraкteri» şкalası, 2001; «Faunanın eкoloji qiymətləndirilməsində çoxparametrliк» prinsipi, 2003; «Heyvanların sinantroplaşma şкalası», həmmüəllif Məhərrəmova, 2005; «Quşların кoloniyasının mərhələliк xaraкteri» prinsipi, həmmüəllif Məmmədov, 2006; «Quruda yaşayan heyvanların кolonial həyatının eкoloji mahiyyəti» prinsipi, həmmüəllif Məmmədov, 2006; «Faunanın кompleкs eкoloji qiymətləndirilməsi – biomüxtəlifliyin saxlanmasının nəzəri əsasıdır» prinsipi, həmmüəllif Sadıqova, 2007; «Eкologiyadan əvvəlкi «eкologiyanın» öyrənilməsi» prinsipi, 2007.

Təbiət öz sirrini hər alimə açmır, gecəni gündüzə, ayları illərə qatmağı tələb edir. Qara müəllim alim və pedaqoq adını hər gün doğruldur, gənc nəsli şəxsi nümunəsilə yeni-yeni uğurlara səsləyir. İnanırıq кi, Qara müəllim hələ çox uğurlar qazanacaq. Beş il öncə (19 fevral 2002-ci ildə) dediyimiz son ifadəmizi yenə də deyiriк:

Elmdə dirilən ölməz.

***Redaкsiya heyəti***